## XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ

- ***Üzeyir Hacıbəylinin ad günü, 18 sentyabr Azərbaycanda Milli Musiqi Günü kimi qeyd olunur.***

- ***1977-ci ildə Volodarsk verfində inşa edilmiş teploxoda Üzeyir Hacıbəylinin adı verilmişdir.***

- ***Azərbaycan SSR Dövlət Mükafatına Üzeyir Hacıbəylinin adı verilmişdir.***

- ***Bakıda bir küçə, Bakı Musiqi Akademiyası (1991-ci ilə qədər Azərbaycan Dövlət Konservatoriyası), Azərbaycan Dövlət Simfonik Orkestri və habelə Azərbaycanda yaradılan mədəniyyət sahəsində xidmətlərinə görə dövlət mükafatı.onun adını daşıyırlar.***

- ***1956 və 1960-cı illərdə Bakıda Hacıbəyliyə abidələr qoyuldu: 1956-cı ildə bəstəkarın məzarında (müəllif: Ö. Eldarov), 1960-cı ildə Azərbaycan Dövlət Konservatoriyasının qarşısında (müəllif: T. Məmmədov).***

- ***1959-cu ildə Şuşada, 1975-ci ildə isə Bakıda Üzeyir Hacıbəyovun ev-muzeyi açılmışdı.***

- ***1959-cu ildə Şuşada abidəsi və büstü qoyulmuşdu. Daha sonra, BBC jurnalisti Tomas de Vaalın sözlərinə əsasən, "gülləbaran edilmiş, ikiyanlı pencəkdə və qırılmış eynəkdə" olan büst söküldü və 1992-ci ildə Şuşanı zəbt edən ermənilər onu metal qırıntılarına satdılar. 2021-ci ilə qədər büst Azərbaycan İncəsənət Muzeyinin açıq havasında nümayiş olunurdu. 14 yanvar 2021-ci ildə büstü Şuşada yenidən quraşdırıldı.***

- ***1976-cı ildə Xamiz Muradov tərəfindən "Azərbaycanfilm" Kinostudiyası istehsalı olan "Üzeyir Hacıbəyov" adlı qısametrajlı sənədli film çəkilmişdir.***

- ***1981-ci ildə məşhur Azərbaycan yazıçı-dramaturqu Anarın rejissorluğu ilə Üzeyir Hacıbəylinin həyatından bəhs edən "Üzeyir ömrü" adlı bədii film çəkilmişdir. Hacıbəyli rolunu Hüseynağa Atakişiyev canlandırmışdır.***

- ***1986-cı ildə Zaur Məhərrəmov tərəfindən "Azərbaycanfilm" Kinostudiyası istehsalı "Üzeyir Hacıbəyov" adlı qısametrajlı sənədli film də dahi bəstəkara həsr olunmuşdur. Filmdə ev muzeyində qorunub saxlanılan və nümayiş etdirilən eksponatlar, bəstəkara məxsus şəxsi əşyalar və qiymətli sənədlər öz əksini tapmışdır.***

- ***2006-cı ildə Vyanada bəstəkarın büstü açıldı.***

- ***UNESCO-nun qərarı ilə 100, 110, 120 illik yubileyi beynəlxalq miqyasda keçirilmişdir.***

- ***2008-ci ildə YUNESKO-nun himayəsi ilə Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasının 100 illiyi qeyd olundu.***

- ***2011-ci ildə Serbiyanın Novi Sad şəhərində bəstəkarın büstü açıldı.***

- ***9 dekabr 2020-ci ildə Sankt-Peterburqdaki şəhər bağçalarından birinə onun adı verildi.***

## ÜZEYİR HACIBƏYLİNİN HEYKƏLLƏRİ VƏ BÜSTLƏRİ



Görkəmli Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin Xalq rəssamı ***Tokay Məmmədov*** tərəfindən 1960-cı ildə yaradılan heykəli dahi bəstəkarın adını daşıyan Bakı Musiqi Akademiyasının önündə yerləşir. 2,9 metr hündürlükdə tuncdan tökülmüş heykəl 3,1 metr hündürlüyü olan qranit pyedestalın üzərində uçaldılmışdır.

### ÜZEYİR HACIBƏYLİNİN ŞUŞA ŞƏHƏRİNDƏKİ HEYKƏLİ




1985-ci ildə Üzeyir Hacıbəylinin 100 illik yubileyi münasibətilə Şuşada bəstəkarın heykəli ucaldılmışdır. Heykəltaraş ***Əhməd Salikov*** tərəfindən hazırlanan abidə 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq tamamilə məhv edilmişdir.




Yalnız şəhər işğaldan azad edildikdən sonra heykəl 2021-ci ildə yenidən bərpa olunmuş, avqusun 29-da rəsmi açılışı baş tutmuşdur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 29-da Şuşada Üzeyir Hacıbəyovun heykəlinin açılışında iştirak ediblər.

Heydər Əliyev Fondu tərəfindən Bakı emalatxanasında hazırlanan abidə 1985-ci ildə bəstəkarın 100 illiyi münasibətilə Şuşada ucaldılan və müəllifi heykəltaraş Əhməd Salikov olan bürünc heykəlin surəti əsasında yaradılıb.

Heykəl Şuşa şəhərində öz əvvəlki yerində ucaldılıb. Abidə heykəltəraşlar Aslan Rüstəmov, Teymur Rüstəmov, Mahmud Rüstəmov tərəfindən hazırlanıb.

**Dahi bəstəkarın 14 yanvar 2021-ci ildə Şuşada yenidən ucaldılan abidəsinin açılışı**






**Ü.Hacıbəyli və Ə.Cavadın Şəmkirdə ucaldılan abidəsi**



**Ağcabədi şəhərində, Ü. Hacıbəylinin büstü**



**2005-ci ildə Üzeyir Hacıbəylinin Vyana şəhərində abidəsi.**
**Xalq rəssamı Ömər Eldarov**



**Dahi bəstəkarın Serbiyanın Novi Sad şəhərində büstü (2011-ci il)**




**Bakıda bəstəkarın yaşadığı evin divarına vurulan xatirə lövhəsi**



**Ü. Hacıbəyovun qəbirüstü abidəsi (1956)**
**Xalq rəssamı Ömər Eldarov**



Ü. Hacıbəyli. Gips büstü
Müəllif - F.Əbdürrəhman



Ü.Hacıbəyli. Bürünc büstü.
Müəllif - F.Əbdürrəhman



Ü.Hacıbəylinin büstü.
Müəllif - Ə.Salikov



Ü.Hacıbəylinin heykəli
Müəllif - Zivər Məmmədova

# ÜZEYİR HACIBƏYLİNİN BAKIDAKI EV-MUZEYİ

***Görkəmli Azərbaycan bəstəkarı, musiqişünas, alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim Üzeyir bəy Hacıbəylinin ev мuzeyi 1975-ci il, noyabrın 20-də Ümummilli lider Heydər Əliyevin göstərişi və iştirakı ilə açılmışdır.***



Muzey Bakıda – Şamil Əzizbəyov küçəsi (keçmiş Verxnaya Priutskaya, sonralar Ketsxoveli) ev 67-də yerləşir.

Bəstəkar bu evdə 1915-1942-ci illər ərzində yaşayıb yaratmışdır.

Ev muzeyi memorial və inzibati binalardan ibarətdir. Memorial hissəyə dəhliz, 4 otaq, şüşəbənd və kiçik həyət daxildir.

Muzeydə bəstəkarın zəngin həyat və yaradıcılığını əks etdirən materiallar və şəxsi əşyalar, əlyazmalar, qədim kitablar qorunur. Burada həmçinin Azərbaycanın görkəmli rəssamlarının və heykəltaraşlarının əsərlərindən ibarət nümunələr, xalçalar, milli musiqi alətləri və müxtəlif qiymətli hədiyyələr nümayiş olunur.

Muzeydə bəstəkarın yaradıcılığından əlavə onun məişətini əks etdirən ekspozisiya maraq doğurur.












## ÜZEYIR HACIBƏYLİNİN ŞUŞADAKI EV-MUZEYİ



Üzeyir Hacıbəylinin evi XIX əsrdə inşa olunub. 1959-cu ildə bina ev-muzeyi kimi fəaliyyətə başlayıb. Görkəmli bəstəkar, peşəkar musiqi sənətimizin və milli operamızın banisi Üzeyir Hacıbəylinin ev-muzeyində anadan olmasının ildönümləri, yubileyləri mütəmadi surətdə dövlət səviyyəsində qeyd olunmuşdur. Ümummilli liderimiz Heydər Əliyev dəfələrlə bu muzeydə olmuş, onun fəaliyyətini yüksək qiymətləndirmişdir. 1985-ci ildə Üzeyir Hacıbəyovun 100 illik yubileyi UNESKO tərəfindən geniş qeyd olunmuş, dünyanın bir çox ölkəsindən gəlmiş qonaqlar Ü. Hacıbəyovun Şuşadakı ev-muzeyini ziyarət etmiş, burada böyük yubiley tədbirləri keçirilmişdir.

1992-ci ilin may ayının 8-də Şuşa şəhərinin erməni təcavüzkarları tərəfindən işğalından sonra muzey fəaliyyətini dayandırmışdır.



Muzeydə Hacıbəylilər ailəsinə məxsus ev əşyaları, həmçinin bəstəkarın şəxsi əşyaları, fotomateriallar, kitablar - ümumilikdə 1700 eksponat qorunub saxlanılırdı. Şuşa şəhəri ermənilər tərəfindən işğal edildikdən sonra muzey fəaliyyətini dayandırmış, eksponatları talanmış, binası isə dağıdılmışdı. Muzeyin mövcud 1700 eksponatından yalnız 136-sını qorumaq mümkün olmuşdu.

Üzeyir Hacıbəylinin ev-muzeyində Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərinə 2022-ci ilin aprel ayından başlanılıb. Bərpa prosesi evin ilkin görünüşünə uyğun olaraq analizlərin hazırlanması, bünövrələrin möhkəmləndirilməsi, döşəmənin, fasadların və dam örtüyünün bərpası, daxili və xarici bəzək işləri, qapıların, pəncərələrin, mühəndis-kommunikasiya sistemlərinin quraşdırılmasını, həmçinin həyətyanı sahənin yaşıllaşdırılmasını əhatə edib. Ərazidə mövcud divar daşlarının sökülərək ölçülərinə görə inventarlaşdırılması, dağılmış hissələrdə bünövrələrin qazılması və sahənin ümumi təmizlənməsi işləri aparılıb. Həmçinin material analizi üzrə nümunələr götürülərək Türkiyədəki laboratoriyada tədqiq edilib, konservasiya və restavrasiya hesabatları yerinə yetirilib. Ev-muzeyinin daxilində divarlar və arakəsmələr hörülüb, döşəmənin bərpası və yenidən qurulması işləri görülüb. Həyətin daş divarının bərpası üzrə bünövrənin qazılıb betonlanması, tarixi görkəminə uyğun hörgüsü və dekorativ elementlərin qoyulması işləri həyata keçirilib. Muzey 2024-cü il sentyabrın 19-da yenidən istifadəyə verilib.

Muzey binasında aparılan bərpa işlərinin yekununda yeni ekspozisiya yaradılıb. Burada muzeyin konsepsiyası üzrə Üzeyir Hacıbəylinin ev-muzeyinin xilas edilən eksponatları nümayiş olunur.

Mədəniyyət ocağının birinci mərtəbəsində Üzeyir Hacıbəylinin ailəsi, uşaqlıq illəri, təhsili haqqında sənədlər, məlumat və digər müxtəlif eksponatlar yer alıb. Bu mərtəbədəki ikinci otaqda Ü.Hacıbəylinin Qori Müəllimlər Seminariyasında təhsili, pedaqoji fəaliyyəti, müəllifi olduğu

əsərlər və məqalələri nümayiş olunur. Burada divarboyu "Sənsiz" romansından notların əks olunduğu fraqment də yer alıb.

İkinci mərtəbədə bəstəkarın tamaşaya qoyulan əsərlərinin ilk premyeralarının afişa və proqramları, eləcə də tələbələrini, səfərlərini əks etdirən fotoşəkillər nümayiş olunur. Burada divarboyu "Koroğlu" operasından notların əks olunduğu fraqment yer alıb.

Ev-muzeyində Üzeyir Hacıbəylinin səhnələşdirilən əsərlərindəki obrazlar üçün çəkilən eskizlər, əsərlərinin proqram və afişalarının kollajından ibarət divar da dizayn edilib. Həmin bölmədə bəstəkarın həyatı, fəaliyyəti, onun əsərləri əsasında lentə alınan filmlərdən kadrlar nümayiş olunur.








## ÜZEYİR HACIBƏYLİ ADINA BAKI MUSİQİ AKADEMİYASI



https://www.musicacademy.edu.az/az/tarikh/virtual-muzeyi/omur-salnamesi.html

## Şərqin ilk Konservatoriyası

### Üzeyir bəydən yadigar

Ü. Hacıbəyov adına Bakı Musiqi Akademiyası (1995-ci ilə qədər Ü. Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası) 1921-ci ildə yaradılmışdır.

Şərqdə ilk ali musiqi təhsili ocağı olan Bakı Musiqi Akademiyası fəaliyyət göstərdiyi müddət ərzində zəngin bir yol keçmiş və milli mədəniyyətimizin çoxəsrlik tarixinə yeni parlaq səhifələr yazmışdır. Ölkəmizdə görkəmli bəstəkarlar və ifaçılar nəslinin yetişməsində Bakı Musiqi Akademiyasının xüsusi yeri vardır.

Bu ali musiqi təhsil ocağı bir çox nailiyyətlər və qələbələr əldə edərək çətin yollar keçmişdir. Konservatoriya milli musiqi mədəniyyətinin uğurlu inkişafına köməklik göstərmiş və respublikadan uzaqlarda da rəğbət və hörmət qazanmışdır. Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının bilavasitə “sələfi” xalq konservatoriyası 1920-ci il may ayının 25-də respublikanın xalq komissarlığı maarif şöbəsinin qərarı ilə açılmışdır.

Dərin düşüncə və uzaqgörənliyi ilə seçilən Ü.Hacıbəyov digər musiqi tədrisi ocağının yaranmasını da lazım bildi. Həmin tədris ocağının əsas işi xüsusi musiqi təhsilinə istiqamətlənmək, məqsədi isə hər il bütün profillər üzrə ixtisasçı - musiqiçilər yetişdirməkdən ibarət idi.

Ü.Hacıbəyovun yaradıcı ideyalarının və praktiki səylərinin nəticəsində respublika konservatoriyası yalnız coğrafi mənada deyil, həm də öz təhsil istiqamətinə görə əsil Azərbaycan Dövlət Konservatoriyasına çevrildi.

Konservatoriyanın ilk onilliyində milli musiqi kadrlarının hazırlığı ilə əlaqədar məsələ mürəkkəb və aktual problemə çevrilmişdı. Konservatoriyada azərbaycanlı tələbələr azlıq təşkil edirdi. Həmişə olduğu kimi, problemi Ü.Hacıbəyovun uzaqgörənliyi həll etdi. 1922-ci ildə o, Azərbaycan türk musiqi məktəbi yaradır, sonralar bu məktəb musiqi texnikumuna çevrilir, məktəbə Ü.Hacıbəyov özü rəhbərlik edir və əsasən azərbaycanlı tələbələr qəbul edilirdi.

Belə ki, birinci təhsil ilində 383 tələbədən 350-si azərbaycanlı idi. 1926-cı ildə bu məktəb konservatoriya ilə birləşir. Ü.Hacıbəyov onun rəhbəri və prorektoru vəzifəsinə təyin edilir.

Konservatoriyanın tələbələrinin milli tərkibi zənginləşir. Artıq 1929-cu ildə onu gələcəkdə məşhur bəstəkar və xalq çalğı alətləri orkestrinin dirijoru S.Rüstəmov tarzən kimi; 1932-ci ildə

Azərbaycan musiqisində romans və kamera-instrumental janrının əsasını qoymuş A.Zeynallı bitirirlər.

1928-1929-cu ildə konservatoriyanın quruluşu dəyişdirilir - birinci və ikincə pillələr ondan ayrılır. Respublikada bir sıra musiqi məktəbləri və musiqi texnikumları yaranır. Konservatoriya yalnız ali musiqi tədris ocağı kimi fəaliyyət göstərir. Belə quruluş bu günə qədər də qorunub saxlanır. Konservatoriya tədrislə bərabər bədii funksiyaları da həyata keçirirdi. Məhz buna görə onun ən ali idarə orqanı - Bədii Şura kimi adlandırılmışdır. Burada ən mühüm yaradıcılıq işi - Azərbaycan xalq mahnılarının toplanması, yazılması və işlənməsi məsələsi həll olunurdu.

## Milli musiqiçilərimizi yetişdirən məktəb

20-30-cu illərdə konservatoriyada tədris prosesini əsasən Bakıda Moskva, Peterburq, Saratov şəhərlərindən gəlmiş milliyyətcə qeyri-azərbaycanlı musiqiçilər həyata keçirirdilər. Onlardan - violonçelist M.Rostropoviçin atası, L.V.Rostropoviç, bəstəkar və nəzəriyyəçi L.Rudolf, pianoçu G.B.Şaroyev (Bakı musiqi məktəblərindən biri onun adını daşıyır), qaboyçalan V.Knyazkov, valtorna çalan və nəzəriyyəçi S.Berolski, vokalçılardan N.Speranski, M.Kolotova, V.Nikolski və başqalarının adlarını çəkmək olar.

Sonralar bu tərkibə yeni pedaqoji kadrlar - respublikada piano məktəblərindən birinin yaradıcısı, pianoçu M.R.Brenner, musiqişünas-nəzəriyyəçi, Azərbaycan musiqişünas-nəzəriyyəçilik məktəbinin yaradıcısı, N.S.Çumakov, F.Əmirov, S.Hacıbəyov, C.Cahangirov, A.Rzayev və H.Rzayev, R.Mustafayev kimi musiqiçiləri yetişdirən B.İ.Zeydman da qoşuldular.

20-30-cu illərdə konservatoriyanın rəhbərliyi daimi deyildi.

Onun ilk rektorları - pianoçu L.Pressman və İ.Aysberq idilər. Onları başqaları da əvəz edirdi. Lakin konservatoriyanın əsl ruhu və lideri həmişə Ü.Hacıbəyov olmuşdur. Məhz o, bütün Azərbaycan musiqi mədəniyyətinin inkişaf yolunu istiqamətləndirmiş, cəsarətlə milli klassik ənənələrinin Avropa bəstəkarlıq yaradıcılığı ilə sintezini həyata keçirmişdir.

Həmin dövrdə Ü.Hacıbəyov qürurla qeyd edirdi: “Heç kəs inkar edə bilməz ki, azərbaycanlılar ümumiyyətlə musiqisevən xalqdır və düzgün istiqamətə ehtiyacı olan sağlam estetik dərrakəyə malikdir”...

1939-cu ildə Ü.Hacıbəyov rəsmi olaraq konservatoriyanın rəhbəri seçilir (1934-cü ildən bu vəzifə direktor adını alır). Həmin dövrdə Ü.Hacıbəyov öz yetkin yaradıcılıq illərini yaşayır. O, artıq qəhrəmanlıq epik dastan əsasında yazdığı “Koroğlu” operasının müəllifi, milli bəstəkarlıq məktəbinin bədii estetik prinsiplərinin əsasını qoyan banisi idi. Ü.Hacıbəyov ömrünün axırına qədər Konservatoriyanın rəhbəri vəzifəsində qalır.

1939-cu ildə konservatoriyaya arxitektura cəhətdən özünə məxsus gözəl bina verilir və bu günə qədər respublikanın ali musiqi təhsili ocağı bu binada məskunlaşır. Binanın müəllifləri - istedadlı arxitektorlar S.Dadaşov və M.Hüseynov olmuşlar.

Ü.Hacıbəyovun Şərq və Qərb musiqi mədəniyyətlərinin qarşılıqlı əlaqəsinin zəruriliyi haqqında tərtib etdiyi musiqi-estetik proqramlı tezisi milli vokal sənətində də öz əksini tapır və XX əsrin istedadlı müğənni-aktyorları Bülbül və Ş.Məmmədova tərəfindən həyata keçirilir. Onlar yeni milli müğənni məktəbinin baniləri oldular. Hər ikisi musiqi təhsili və respublikanın opera sənəti sahəsində layiqli iz buraxmışlar. Ş.Məmmədova R.Qliyerin eyni adlı “Şahsənəm” operasında Şahsənəm surətinin təkraredilməz yaradıcısı, Bülbül isə Üzeyir Hacıbəyovun “Koroğlu” operasının əsas qəhrəmanının çətin partiyasının klassik interpretatorudur.

Bakı Musiqi Akademiyasına Azərbaycan Respublikasının Prezidentinin 18 sentyabr 2008-ci il tarixli sərəncamı ilə yenidən Üzeyir Hacıbəylinin adı verilmişdir.

**Klassik musiqiyə cığır açan sənət ocağı**

30-cu illərdə konservatoriyanın nəzdində digər təhsil bazası təşkil edilir - Fəhfak (Rabfak) - musiqi fəhlə fakültəsi. Onun məqsədi musiqi təhsilinə Azərbaycan millətindən olan fəhlə nümayəndələri cəlb etmək idi. Fəhlə fakültəsində gələcəyin bəstəkarlarından - Q.Qarayev, C.Hacıyev, T.Quliyev, Z.Bağırov, A.Hüseynzadə, musiqişünas M.S.İsmayılov təhsil alırdılar.

30-cu illərin axırlarından başlayaraq Azərbaycan konservatoriyası daha istedadlı və perspektivli tələbələrin təhsillərini təkmilləşdirmək üçün onları P.İ.Çaykovski adına Moskva Konservatoriyasına göndərir. Q.Qarayev, C.Hacıyev XX əsrin görkəmli bəstəkarı Dm.Şostakoviçin sinfini bitirmişlər. Burada T.Quliyev, Z.Bağırov təhsil almış, nəfəsli alətlərdə çalan ifaçılardan M.Zeynalov, M.Orucov, E.Paşayev SSRI Böyük Teatrının solistləri olmuşlar. Pianoçu R.Atakişiyev, S.Qəniyev, musiqişünas N.V.Abezqauz Moskva Konservatoriyasında öz təhsillərini təkmilləşdirmişlər.

Xalq musiqimizin inkişafında əvəzsiz xidmətləri olan tarzənlər Əhməd Bakıxanov, Əhsən Dadaşov, Baba Salahov, Bəhram Mansurov, Ağası Məşədibəyov, Səid Rüstəmov məktəbin layiqli nümayəndələridir.

Bu gün də onların ustadlıq ənənələri qorunub saxlanılır, təkmilləşir və milli musiqi kadrlarının yetişdirilməsində geniş istifadə olunur.

Konservatoriyada əsas baza kafedraları tam şəkildə formalaşmışdı: ixtisas fortepiano, Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi, simli alətlər, nəfəs və zərb alətləri, vokal, bəstəkarlıq, musiqi tarixi, musiqi nəzəriyyəsi, xor dirijorluğu, xalq çalğı alətləri, kamera ansamblı fəaliyyət göstərirdi. Müxtəlif illərdə akademiyada tanınmış musiqiçilər, bəstəkarlar, pedaqoqlar - Ü.Hacıbəyov, Bülbül, Ş.Məmmədova, B.Karaqiçeva, Q.Şaroyev, L.Rudolf, L.Rastrapoviç, Q.Qarayev, S.Hacıbəyov, C.Cahangirov, S.Rüstəmov, P.Brener, R.Atakişiyev, E.Səfərova və b. çalışıb.

Hazırda BMA-da 19 kafedranı birləşdirən 4 fakültə- fortepiano, ifaçılıq, tarix və nəzəriyyə, İAF fakültələri mövcuddur. Təhsil Azərbaycan və rus dillərindədir.

---

## ÜZEYİR HACIBƏYOV ADINA AZƏRBAYCAN DÖVLƏT SİMFONİK ORKESTRİ



Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestri — SSRİ-də yaranmış ilk orkestrlərdən biridir.

Dövlət Simfonik Orkestri 1920-ci ildə Üzeyir Hacıbəyovun təşəbbüsü ilə yaradılmışdır. Yeni yaradıldığı vaxtlarda dahi bəstəkar Bethovenin 150 illiyinə həsr olunmuş yubiley konsertlərində böyük proqramla çıxış etmişdir. Həmin konsertlərdə Bethovenin 1-ci, 3-cü və 9-cu simfoniyaları, fortepiano və orkestr üçün 5-ci konserti, "Leonora 3" uvertürası səsləndi. Müxtəlif illərdə dövlət simfonik orkestri ilə M. Çernyaxovski, U. Qoldşteyn, A. Stolerman və başqa dirijorlar işləmişlər.

1922–23-cü il mövsümünün konsert proqramlarında Çaykovskinin Altıncı simfoniyası, "Françeska da Rimini" uvertürası, skripka və fortepiano üçün konsertləri, violonçel və orkestr üçün

"Rokoko mövzusuna variasiyalar", "Italyan kapriççiosu", Rimski-Korsakovun "Şəhrizadə" simfonik süitası, Borodinin "Bahadır" simfoniyası, Şubertın "Tamamlanmamış simfoniya"sı, Bethovenin 7-ci simfoniyası və s. orkestr tərəfindən ifa olunmuşdur.

Orkestrin formalaşmasında R. Baton (Fransa), O. Klemperer (Almaniya), F. Ştidri (Avstriya), N. Qolovanov (Rusiya) yaxından iştirak etmişlər. 1945–1948-ci illərdə orkestrin baş dirijoru vəsifəsində təcrübəli musiqiçi, tanınmış dirijor, professor Leo Ginzburq çalışmışdır.

Niyazi 1946-cı ildə Leninqradda dirijorların Ümumittifaq baxışında iştirak edərək Dmitri Şostakoviçin başçılıq etdiyi münsiflər heyətinin qərarı ilə müsabiqənin laureatı adını qazanır. 1948-ci ildən isə simfonik orkestrin baş dirijoru və bədii rəhbəri təyin olunur. Orkestr ən yüksək peşəkarlıq səviyyəsinə Niyazinin rəhbərliyi dövründə çatmışdır. Niyazinin adı milli musiqi sənətində "qızıl mərhələ"nin simvoluna çevrilmişdir.

1944-cü ildə Tiflisdə Zaqafqaziya respublikalarının musiqi dekadası ərəfəsində 1940-cı ildən buraxılmış simfonik orkestr Ü. Hacıbəyovun təşəbbüsü ilə yenidən formalaşdırılır. İlk məşqdən sonra orkestr ifaçıları kollektivə Üzeyir Hacıbəyovun adının verilməsi fikrini irəli sürürlər.

1944-cü ildən başlayaraq Azərbaycan Dövlət Simfonik Orkestri Üzeyir Hacıbəyovun adını daşıyır.

---

## 18 SENTYABR - MILLI MUSİQİ GÜNÜ



Milli Musiqi Günü dahi Ü.Hacıbəyovun doğum günü ilə bağlıdır. Xalqımız bu günü Milli Musiqi günü kimi qeyd edir. Çünki milli musiqimiz, mədəniyyətimiz öz inkişaf zirvəsinə görə Üzeyir Hacıbəyova borcludur.

1995-ci ildə Heydər Əliyevin fərmanı ilə dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində 18 sentyabrın Milli Musiqi Günü kimi qeyd olunması qərara alınıb.

Böyük bəstəkarın ad gününün bayram kimi qeyd edilməsi ənənəsinin əsasını Maestro Niyazi qoymuşdur. Görkəmli bəstəkar və dirijor Niyazi Üzeyir bəyin vəfatından sonra hər il bu günü qeyd edərmiş. Ənənəvi olaraq bu günü Azərbaycan Dövlət Konservatoriyasının (indiki - Bakı Musiqi Akademiyası) önündə minlərlə insan toplaşırdı. Burada Üzeyir Hacıbəyovun adını daşıyan Azərbaycan Dövlət Simfonik Orkestri Niyazinin rəhbərliyində bəstəkarın əsərlərini ifa edərdi.

Mədəniyyət ocaqlarında, musiqi məktəblərində, xüsusilə konservatoriyamızın - indiki Musiqi Akademiyasının qarşısında Üzeyir Hacıbəylinin şərəfinə onun ölməz əsərlərindən fraqmentlər səsləndirilərdi. Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda, xüsusilə də Bakıda yaşanan siyasi böhranla əlaqədar bu ənənə bir müddət unuduldu.

Mədəniyyət və Turizm Nazirliyi Milli Musiqi Günü ilə əlaqədar bir sıra tədbirlər keçirir: Bakı musiqi akademiyası önündə bu tarixi günlə bağlı təntənəli mərasim keçirilir, Üzeyir Hacıbəyovun ev-muzeyində mədəni tədbirlər təşkil olunur, Heydər Əliyev adına sarayda Üzeyir Hacıbəyovun xatirəsinə həsr olunmuş təntənəli gecə keçirilir.

"Bakı Metropoliteni" QSC tərəfindən də Milli Musiqi Günü ilə bağlı getdikcə hər il üçün ənənəvi hal alan sosial layihəni gerçəkləşdirilir. Bu münasibətlə stansiyalarda artıq ənənə halını alan musiqili proqram təşkil olunur. Metropolitendən istifadə edən sərnişinlərə bayram ovqatı bəxş

etmək məqsədilə sentyabrın 18-i sərnişin axını daha çox olan bir neçə stansiyanın vestibülündə konsert proqramı təşkil edilir. Proqramda milli və klassik musiqi nümunələri səsləndirilir.

## ÜZEYİR HACIBƏYLİ BEYNƏLXALQ MUSİQİ FESTİVALI




Festival Azərbaycanda 2009 – cu ildən keçirilir. Festival çərçivəsində ölkənin bir neçə şəhərində tədbirlər keçirilsə də, əsas tədbirlər Bakıda baş tutur. Bundan əvvəl 1995 – ci ildən başlayaraq hər ilin 18 sentyabr günü (Üzeyir Hacıbəyovun doğum günü) musiqi bayramı kimi qeyd olunurdu. Lakin 2009 – cu ildən Beynəlxalq Musiqi Festivalı keçirilməsi haqda qərar qəbul olunub. Festivalın işində azərbaycanlı musiqiçilərlə yanaşı başqa ölkələrdən olan ifaçılar da iştirak edir.

Festival zamanı konsertlərlə yanaşı Üzeyir Hacıbəyovun əsərləri əsasında teatr tamaşaları da baş tutur tamaşalarla yanaşı dahi bəstəkarın yaradıcılıq irsini araşdıran elmi konfranslar da keçirilir. Festivalın təşkilatçıları Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Heydər Əliyev Fondudur.

Bu il də Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Türk Mədəniyyəti və İrsi Fondu, eləcə də ICESCO-nun dəstəyi ilə dahi bəstəkarın anadan olmasının 140 illiyi münasibətilə  ölkəmizdə Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyliyə həsr olunmuş XVII Beynəlxalq Musiqi Festivalı keçiriləcək.

Festivalda Azərbaycan musiqiçiləri ilə yanaşı Türkiyə, ABŞ, Almaniya, Fransa, İsveçrə, Koreya Respublikası və digər ölkələrdən tanınmış ifaçılar və musiqişünaslar çıxış edəcəklər.

## NUMİZMATİKA VƏ FİLATELİYADA




**1995-ci ilə aid poçt markası**




**2014-cü ilə aid poçt markası**

## XATİRƏ SİKKƏLƏRİ

UNESKO-nun görkəmli şəxsiyyətlərin ildönümü və 1985-ci ilin mühüm hadisələri təqviminə əsasən Hacıbəyovun 100 illik yubileyi beynəlxalq miqyasda da qeyd edilmişdir. Yubiley münasibətilə adına qızıl sikkələr buraxılmışdır.






---

## ADI VERİLƏN KÜÇƏLƏR



**Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi**



**Sumqayıt şəhəri, Ü. Nacıbəyli küçəsi**



**Ağcabədi şəhəri Ü.Hacıbəyli prospekt**

# ÜZEYİR HACIBƏYOVUN ADINI DAŞIYAN QURU YÜK GƏMİSİ



**1977-ci ildə Rusiyanın Rıbinsk şəhərindəki Volodarski adına gəmiqayırma zavodunda inşa edilib.**

**“Çay-dəniz” tipli teploxodun yükqaldırma qabiliyyəti 3000 tondur.**